# Həftəlik
# *Bülleten*



**105**
**22 Avqust 2025**

- Xəbərlər
- Tədbirlər
- Görüşlər
- Tender və lahiyələr
- Dünya tikililəri

ATMİA

info@atmia.az www.atmia.az

**Prezident Gəncədə bazalt məhsullarının istehsalı müəssisəsinin təməlini qoyub.**

Avqustun 20-də Prezident İlham Əliyev və Mehriban Əliyeva Gəncə şəhərində "Azerbazalt" MMC-nin bazalt məhsullarının istehsalı müəssisəsinin təməlqoyma mərasimində iştirak ediblər. "Azerbazalt" MMC-nin təsisçisi Rafət Əliyev dövlətimizin başçısına və birinci xanıma müəssisə haqqında məlumat verdi. Bildirildi ki, burada bazalt tozu və onun əsasında orqanik gübrə istehsalı həyata keçiriləcək. Layihə iki mərhələdə icra olunacaq. Ümumi sahəsi 4 hektar olan zavodda ildə 360 min ton orqanik gübrənin istehsalı planlaşdırılır. İsveç və Türkiyə texnologiyaları əsasında qurulacaq müəssisədə əsas xammal kimi Göygöl rayonunun "Çaykənd" yatağından çıxarılan yüksəkkeyfiyyətli bazaltdan istifadə ediləcək. Layihənin ikinci mərhələsində isə bazalt əsasında yüksək texnoloji innovativ məhsulların - bazalt lifi, 3D printer üçün xammal olan filamenin və digər sənaye materiallarının istehsalı həyata keçiriləcək. Bu isə öz növbəsində layihəyə əlavə strateji dəyər verməklə yanaşı, müdafiə, tikinti və yüksək texnologiyalar sektorlarının müasir və davamlı məhsullarla təmin olunmasına töhfə verəcək. Məhsullar həm daxili tələbatı ödəyəcək, həm də xarici bazarlara ixrac olunacaq. Bazalt liflərindən isə filtrasiya, səsboğucu, istilik buraxmayan, korroziyaya davamlı örtüklər, beton üçün qatqı və tikinti sahəsində istifadə olunan digər yüksək dayanıqlı materiallar istehsal edilir. Bu materiallar yüksək istilik müqaviməti, dayanıqlılığı və ekoloji təmizliyi ilə seçilir.



**İlham Əliyev Kəlbəcərdə dünyanın ən böyük tunellərindən birinin - AÇILIŞINI ETDİ.**

Avqustun 21-də Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Toğanalı-Kəlbəcər-İstisu avtomobil yolunda görülən işlərlə tanış olublar. Dövlətimizin başçısı bu yolun 13,5-ci kilometrliyində inşa edilmiş və uzunluğu 11,7 kilometr olan Murovdağ tunelinin texniki açılışını edib. Göygöl və Kəlbəcər rayonlarını birləşdirən avtomobil yolunun uzunluğu Toğanalı-Kəlbəcər hissəsində 56 kilometr, Kəlbəcər-İstisu hissəsində isə 26 kilometr təşkil edir. Xatırladaq ki, Toğanalı-Kəlbəcər yolunun 13-cü kilometrliyindən Murovdağ silsiləsi başlanır və yüksəklik 1700 metrdən 3260 metrə qədər artır. Dünyanın əz uzun avtomobil tunellərindən biri olacaq Murovdağ tuneli burada inşa edilir. Tunel bir istiqamət üzrə 2 hərəkət zolaqlı və 10 metr enində olacaq. Bundan əlavə 561,2 metr, 626,9 metr, 500 metr və 947,9 metr uzunluğunda 4 tunelin tikintisi də həyata keçirilir. Uzunluğu 23,4 kilometr olacaq Murovdağ tunelinin daxilində sağ və sol hissələri birləşdirən bağlantı yolların inşası istiqamətində işlər davam etdirilir. Layihə üzrə tikiləcək tunellərin ümumi uzunluğu isə 26 kilometrdir. Bundan əlavə, yol oxu çətin relyef və çay yatağı boyu davam etdiyi üçün yamacbərkitmə işləri, istinad divarları və mühəndisi qurğuların inşası nəzərdə tutulub.



**Mənşə sertifikatlarının "e-keyfiyyet.gov.az" portalından verilməsinə başlanılıb.**

Azərbaycanda malın mənşə ölkəsini təsdiq edən müraciətlərin qəbulunun Keyfiyyət informasiya sistemi (https://e-keyfiyyet.gov.az/home) üzərindən həyata keçirilməsinə başlanılıb. Bu barədə Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyindən bildirilib. Məlumata görə, bu məqsədlə Agentlik tərəfindən malın mənşə ölkəsini təsdiq edən sertifikatların verilməsi prosesinin tam elektronlaşdırılması üçün "Mənşə sertifikatı" alt modulu hazırlanaraq Keyfiyyət informasiya sistemində istifadəyə verilib. Mənşə sertifikatlarının əldə olunması ilə bağlı müraciətlərin Keyfiyyət informasiya sistemi vasitəsilə edilməsi ixracatçılar üçün bir sıra üstünlüklər yaradır. Bunlara elektron imza və ya asan imzadan istifadə etməklə şəxsi kabinetin yaradılması, real rejimdə müraciətlərin icra statusları barədə dəqiq məlumatların əldə edilməsi, malın mənşə ölkəsinin müəyyən edilməsi üzrə ekspertizanın keçirilməsi məqsədilə müqavilənin bağlanması və keçirilən ekspertiza üçün xidmət haqqının ödənilməsinin elektron qaydada həyata keçirilməsi, dövlət rüsumlarının elektron qaydada ödənilməsi, müəyyən dövr aralığında əldə edilmiş mənşə sertifikatları barədə statistik məlumatların əldə olunması, ixracatçıların təqdim etdiyi məlumatlar əsasında mənşə sertifikatlarının elektron qaydada formalaşdırılması, mənşə sertifikatlarının çevik və operativ əldə edilməsi və s. aiddir.



**Azərbaycan xaricə yarım milyon tondan çox sement ixrac edib - 28% ARTIM.**

Bu ilin ilk 7 ayında Azərbaycandan 34,8 milyon dollar həcmində 541 min 401 ton sement ixrac edilib.

Dövlət Gömrük Komitəsinə istinadən xəbər verilir ki, sement ixracı ötən ilin eyni dövrü ilə müqayisədə dəyər ifadəsilə 8,6 milyon dollar və ya 32,7%, miqdar ifadəsilə isə 117 min 514 ton, başqa sözlə 27,7% çoxdur.

Qeyd edək ki, 2024-cü ilin yanvar-iyul ayları ərzində Azərbaycandan 26,2 milyon dollar dəyərində 423 min 887 ton sement ixrac olunmuşdu.

Bu ilin ilk 7 ayının nəticələrinə görə Azərbaycanın ixrac etdiyi sementin 1 kiloqramının orta ixrac qiyməti 11 qəpik təşkil edib. 2024-cü ilin eyni dövründə isə bu rəqəm 10,5 qəpik idi. Bu da illik müqayisədə cüzi bahalaşma deməkdir.

Bu il 7 ayında ümumi ixracın 0,23%-i, qeyri-neft sektoru üzrə ixracın isə 1,66%-i sementin payına düşüb. Ötən ilin eyni dövründə isə ümumi ixracdakı payı 0,16% olub.



**Azərbaycana qara metal idxalı azaldı, ixrac isə artdı.**

Bu ilin yanvar-iyul aylarında Azərbaycana 551,9 min ton qara metal və ondan hazırlanan məmulatlar idxal edilib.

Dövlət Gömrük Komitəsinə istinadən xəbər verir ki, bu miqdarda metalın idxalına çəkilən xərcin həcmi 627,8 milyon ABŞ dolları təşkil edib.

Qara metal və ondan hazırlanan məmulatların idxalı ötən ilin eyni dövrü ilə müqayisədə miqdar ifadəsi ilə 42 min ton və ya 7,1%, dəyər ifadəsi ilə 52,2 milyon ABŞ dolları, yaxud da 7,7% azalıb.

Qeyd edək ki, ötən ay idxal olunan qara metal və ondan hazırlanan məmulatların ümumi idxalda xüsusi çəkisi 4,61% təşkil edib.

Eyni zamanda 2025-ci ilin ilk yeddi ayında Azərbaycandan 53,8 milyon ABŞ dolları dəyərində 51,5 min ton qara metal və ondan hazırlanan məmulatlar ixrac edilib. Bu isə ötən ilin eyni dövründəki göstərici ilə müqayisədə dəyər ifadəsində 8,6 milyon ABŞ dolları və ya 19,1%, həcm baxımından isə 5,5 min ton və yaxud 11,9% artım deməkdir.



# SƏRGİ/KONFRANS/FORUM

**Sərginin adı: ARCHITECT @ WORK - NETHERLANDS 2025**

**Tarixlər: 09 - 10 sentyabr 2026-cı il**

**Məkan: Ahoy Rotterdam, Rotterdam (Hollandiya)**

Memarlıq və İnteryer Dizayn Sərgisi. ARCHITECT@WORK sizə aşağıdakılarla əlaqə saxlamaq imkanı verir: memarlar, daxili memarlar, dizaynerlər, mühəndislik büroları, layihə tərtibatçıları, texniki xidmətlər, şəhər və rayon şuraları.

**Sərginin adı: GREEN INDUSTRIAL TRANSFORMATION INDONESIA 2025**

**Tarixlər: 02 - 04 sentyabr 2025-ci il,**

**Məkan: Cakarta Beynəlxalq Sərgisi (JIExpo), Cakarta (İndoneziya)**

İndoneziyada yaşıl sənaye üçün innovativ həllər və qabaqcıl texnologiyalarını təqdim edən əsas brendləri bir araya gətirən ən əhatəli yaşıl sənaye ticarət sərgisi.

**Sərginin adı: BCT - BUILDING CONSTRUCTION TECHOLOGY EXPO 2025**

**Tarixlər: 03 - 05 sentyabr 2025-ci il,**

**Məkan: Təsir Sərgi və Konqres Mərkəzi, Banqkok (Tayland)**

"Bina İnşaat Texnologiyaları Sərgisi" ci istiqamətə yönəlmiş bir platformadır. Tayland və ASEAN-da tikinti və tikinti sənayesi. Maşınlar, Avadanlıqlar, Alətlər, Ağıllı Obyektlərin İdarə Edilməsi, Bina Məlumat Modelləşdirməsi (BIM).

**Sərginin adı: KAZBUILD ALMATY 2025**

**Tarixlər: 03-05 sentyabr 2025-ci il,**

**Məkan: Atakent Beynəlxalq Sərgi Mərkəzi, Almatı (Qazaxıstan)**

Qazaxıstan Beynəlxalq İnşaat və interyer, pəncərələr, qapılar və fasadlar, keramika və daş sərgisi

**Tərtərin yollarını təmir edəcək şirkət axtarılır – ŞƏRTLƏR**

Tərtər Rayon İcra Hakimiyyəti açıq tender elan edir.
Elanda 2025-ci ildə yollarda aparılacaq təmir işlərinin satın alınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Nail Şəfizadə, Sektor müdiri-baş mühasib
Email : nailshafizada@gmail.com
Əlaqə telefonnu: +994 10 728 02 08



**Bu ərazilərdə yerləşən köçkün evləri təmir ediləcək - TENDER ELANI.**

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi Mənzil İstismar Departamenti açıq tender elan edir.
Elanda Bakı və Sumqayıt şəhərləri, Abşeron, Şabran və Kürdəmir rayonlarında salınmış məcburi köçkün qəsəbələrində yerləşən mənzillərin və fərdi yaşayış evlərinin təmiri işlərinin satın alınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Fariz Abbasov, Sektor müdiri
Email : fariz.abbasov@idp.gov.az
Əlaqə telefonnu: +994 12 430 15 30



**Bu su anbarında təmir işləri aparılacaq - 6,4 MİLYONLUQ TENDER KEÇİRİLİR.**

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin tabeliyindəki Tikilməkdə Olan Obyektlərin Müdiriyyəti açıq tender elan edir.
Elanda Viləşçay su anbarının II növbəsinin tikintisi texniki-iqtisadi əsaslandırılması və layihə smeta sənədlərinin hazırlanması əsasında Viləşçay su anbarında (qülləli suburaxıcı qurğu) təmir-bərpası işlərinin satın alınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Yusif Hüseynov, Planlama və Satınalmaların Təşkili şöbəsi baş məsləhətçi-şöbə müdirinin müavini
Email : yusif.huseynov@toom.gov.az
Əlaqə telefonnu: +994 55 225 12 31



**Qarabağda təmir və tikinti işləri ilə bağlı 4,6 milyonluq - TENDER ELAN EDİLDİ.**

Ağdam, Füzuli və Xocavənd Rayonlarında Bərpa,Tikinti və İdarəetmə Xidməti açıq tender elan edir.
Elanda "Xocavənd rayonunun Hadrut qəsəbəsində İnfrastruktur binasının tikintisi və çoxmənzilli yaşayış binalarının təmiri işləri"nin satın alınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Zabil Vəliyev, Baş məsləhətçi
Email : z.valiyev@afxbti.gov.az
Əlaqə telefonnu: +994 50 466 12 66



**AZƏRBAYCAN RESPUBLİKASI ƏMƏK VƏ ƏHALİNİN SOSİAL MÜDAFİƏSİ NAZİRLİYİ TENDER ELAN EDİR.**

Azərbaycan Respublikası Əmək Və Əhalinin Sosial Müdafiəsi Nazirliyi açıq tender elan edir.
Elanda Nazirliyin inzibati binasında otaqların əsaslı təmiri işlərinin satınalınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Asim Qənbərov, mütəxəssis
Email: asim.g.ganbarov@sosial.gov.az
Əlaqə telefonu: +994 12 526 01 01 (2635)



**AĞDAM, FÜZULİ VƏ XOCAVƏND RAYONLARINDA BƏRPA,TİKİNTİ VƏ İDARƏETMƏ XİDMƏTİ PUBLİK HÜQUQİ ŞƏXSİ TENDER ELAN EDİR.**

Ağdam, Füzuli Və Xocavənd Rayonlarında Bərpa,tikinti Və İdarəetmə Xidməti Publik Hüquqi Şəxsi açıq tender elan edir.
Elanda "Xocavənd rayonunun Hadrut qəsəbəsində İnfrastruktur binasının tikintisi və çoxmənzilli yaşayış binalarının təmiri işləri"nin satın alınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Zabil Vəliyev, Baş məsləhətçi
Email: z.valiyev@afxbti.gov.az
Əlaqə telefonu: +994 50 466 12 66



**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA VƏTƏNDAŞLARA XİDMƏT VƏ SOSİAL İNNOVASİYALAR ÜZRƏ DÖVLƏT AGENTLİYİ TENDER ELAN EDİR.**

Azərbaycan Respublikasının Prezidenti Yanında Vətəndaşlara Xidmət Və Sosial İnnovasiyalar Üzrə Dövlət Agentliyi açıq tender elan edir.
Elanda "ASAN xidmət" mərkəzlərində tikili və avadanlıqların cari təmiri işlərinin satınalınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Səbuhi Ələkbərli, Dövlət Agentliyinin Satınalmaların təşkili və müqavilələrin idarəedilməsi şöbəsinin baş məsləhətçisi
Email: s.elekberli@asan.gov.az
Əlaqə telefonu: +994 12 444 74 44 (2025)





**www.atmia.az**